**Azərbaycan Skautlar Assosiasiyasının**
**Milli Komitəsinin iclasının**

PROTOKOLU

Bakı şəhəri 21 noyabr 2012-ci il

İştirak edirdilər: Komitə üzvləri -5 nəfər
Dəvət olunanlar: 3 nəfər

**Gündəlik məsələ:**

1.Azərbaycan Skautlar Assosiasiyasının növbəti Baş Assambleyasının iştirakçılarının Azərbaycan Skautlar Assosiyasiyasının Nizamnaməsinin 3.2.-ci bəndinə uyğun olaraq müəyyənləşdirilməsi haqqında.

Gündəlik səs çoxluğu ilə təsdiq olundu.
**Dinlənildi:**
Gündəliyin məsələsi ilə əlaqədar olaraq Azərbaycan Skautlar Assosiasiyasının Prezidenti Səbinə Hüseynova çıxış etdi və 2012-ci ilin dekabr ayının 23-də keçiriləcək Azərbaycan Skautlar Assosiasiyasının Baş Assambleyasının iştirakçılarının seçilməsi ilə bağlı təklif irəli sürdü.

Komitə üzvləri gündəlikdə duran məsələ ilə bağlı çıxış edərək öz təkliflərini verdilər.

**Qərara alındı:**

1. Azərbaycan Skautlar Assosiyasiyasının (bundan sonra “Assosiyasiya”)Nizamnaməsinin 3.2.-ci b. bəndinə uyğun olaraq Baş Assambleyada iştirak edə bilər:
   - fəal liderlər, hansılar ki, gənclərin tərbiyə olunmasında iştiak edir.
2. Fəal liderlər aşağıdaki meyarlara cavab verməlidir:
   - iki seçki müddətindən az olmamaq şərtilə Assosiyasiyasının fəaliyyətində iştirak edən və Nizamnamənin 6.4.5.-ci bəndinə uyğun olaraq Milli Komitə tərəfindən təsdiq olunmuş liderlər;
   - Assosiyasiyanın nizamnaməsinin 4.2.-ci bəndində göstərilən “Yerli Səviyyə”nin strukturuna uyğun olaraq skaut qrupu tərəfindən irəli sürülmüş həmin qrupun böyük lideri;
   - Assosiyasiyanın Nizamnaməsinin 4.3.-cü bəndinə uyğun olaraq Milli Komitə tərəfindən təsdiq olunmuş Filiallarının iclaslarında seçilmiş nümayəndələri;
   - Assosiyasiyanın seçilmiş Milli Komitənin üzvləri;
   - Assosiyasiyanın seçilmiş auditor komissiyasının üzvləri;
   - Assosiyasiyanın Fəxri Prezidenti
   - Assosiyasiyanın fəaliyyətinin qurulması və təkmilləşdirilməsində əhəmiyyətli dərəcədə dəstək göstərən üzvlər;
   - Assosiyasiya qarşısında maliyyə öhdəliklərini tam yerinə yetirən liderlər;
   - Assosiyasiyaya birbaşa minimum 10000 (on min manat) miqdarında maliyyə yardımı edən üzvlər;
3. Qonaq qismində iştirak edə bilənlər:
   - Assosiyasiyanın fəal liderləri hər Filialdan bir nəfərdən çox olmamaq şərti ilə;
   - Assosiyasiyanın əməkdaşlıq etdiyi qeyri-hökümət və beynəlxalq təşkilatlarının nümayəndələri;
   - Dövlət orqanlarının nümayəndələri;

**İmzalar:**

Milli Komitənin Sədri: Səbinə Hüseynova

Katib: Təranə Cəfərova